# Hər bir sərxoşedici içki haramdır.

Əbu Burdə, atası Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun) belə rəvayət edir: Peyğəmbər (sallallahu əleyhi va səlləm) onu (Əbu Musanı) Yəmənə göndərdi. Əbu Musa Peyğəmbərdən (sallallahu əleyhi va səlləm) orada hazırlanan içkilər barədə soruşdu. Peyğəmbər (sallallahu əleyhi va səlləm) dedi: "O nədir?". Əbu Musa dedi: "əl-Bit və əl-Mizr". Əbu Burdədən soruşdular: "əl-Bit nədir?". O dedi: "Baldan hazırlanmış şərabdır, Mizr isə arpadan hazırlanmış şərabdır". Peyğəmbər (sallallahu əleyhi va səlləm) buyurdu: "Hər bir sərxoşedici (içki) haramdır". Hədisi Buxari rəvayət etmişdir. Müslimin rəvayətində isə belə deyilir: Əbu Musa dedi: Rəsulullah (sallallahu əleyhi va səlləm) məni və Muaz bin Cəbəli Yəmənə göndərdi. Mən dedim: "Ey Allahın elçisi! Bizim diyarda "Mizr" deyilən bir içki var ki, o arpadan hazırlanır və "Bit‘' deyilən başqa bir içki də var ki, o isə baldan hazırlanır". Peyğəmbər (sallallahu əleyhi va səlləm) belə buyurdu: "Hər bir sərxoşedici (içki) haramdır". Müslimin başqa rəvayətində isə belə deyilir: Peyğəmbər (sallallahu əleyhi va səlləm) buyurdu: "İnsanı namazdan sərxoş edən hər şey (hər bir içki) haramdır". Müslimin başqa bir rəvayətində isə belə deyilir: Allah Rəsuluna (sallallahu əleyhi va səlləm) qısa və geniş mənaları əhatə edən və [deyilənləri mümkün olan ən yaxşı şəkildə] yekunlaşdıran kəlimələr bəxş edilmişdir. O, (sallallahu əleyhi va səlləm) belə buyurdu: "Namazdan sərxoş edən hər bir sərxoşedici şeyi (içkini) qadağan edirəm".

[Səhih] [رواه البخاري ومسلم]

Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) Peyğəmbərin (sallallahu əleyhi va səlləm) onu Yəmənə göndərdiyi zaman onun Peyğəmbərdən (sallallahu əleyhi va səlləm) orada hazırlanan bəzi içkilərin haram olub-olmadığını soruşduğunu xəbər verir. Əbu Musa (Allah ondan razı olsun) dedi: Bunlardan biri Bitdir. O, baldan hazırlanan şərabdır. Digəri isə Mizrdir. O isə arpadan hazırlanan şərabdır. Peyğəmbərə (sallallahu əleyhi va səlləm) qısa və geniş mənaları əhatə edən kəlimələr bəxş edilmişdir. O, (sallallahu əleyhi va səlləm) belə buyurdu: "Hər bir sərxoşedici (içki) haramdır".

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee